# GÖYÇAY: HƏR SƏHƏRİ XOŞ GÜZARA AÇILAN ŞƏHƏR

**(əvvəli ötən sayımızda)**

**Aqrar sahədə mövcud imkanlardan və ehtiyat mənbələrindən heç də arzulanan səviyyədə istifadə olunmur. Fərdi təsərrüfatlardakı torpaq sahələrinin kiçik həcmli olması əkin və becərmə işlərinin aparılmasında pərakəndəliyə, aqrotexniki müddətlərin pozulmasına və nəticədə gözlənilən məhsulun alınmamasına səbəb olur. Kənd təsərrüfatı təyinatlı və dövlət ehtiyyat fondu torpaqlarından istifadə zamanı mövcud qanunvericiliyin tələblərinə əməl edilməsi bu gün ən aktual məsələlərdən biridir və bununla bağlı hələ də yerli icra və bələdiyyə orqanlarının fəaliyyətində ciddi nöqsan və çatışmazlıqlar mövcuddur.**

Bu pozuntular əsasən həmin torpaqlarda qanunsuz tikinti işlərinin aparılması, tullantılarla çirkləndirilməsi və digər nöqsanlardır.



Məruzədə qeyd edilmişdir ki, bir çox bələdiyyələr torpaqların ayrılması ilə bağlı qanunsuz qərarlar verir və onların böyük əksəriyyəti öz vəzifələrini və məsuliyyətlərini dərk edib fəaliyyətlərini günün tələblərinə uyğun qura bilmirlər. Dövlət tərəfindən vətəndaşlara verilmiş pay torpaqlarının təyinatının qanunsuz dəyişdirilərək həmin torpaqlarda fərdi yaşayış evlərinin, xidmət obyektlərinin inşa edilməsi, balıq göllərinin yaradılması, həyətyanı altına verilməsi ilə bağlı çoxsaylı faktlar vardır və bütün bunlar bu sahəyə cavabdeh insanların gözü qarşısında baş vermişdir.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə görülən işlər və qazanılan uğurlarla yanaşı məsələyə tənqidi yanaşmaqla bir sıra nöqsanların da mövcudluğunu diqqətə çatdırmışdır. M.Səlimzadə demişdir:

- Rayon əhalisinin içməli su, elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması sahəsində tədbirlər davam etdirilmişdir. Bütün bunlarla yanaşı rüb ərzində kənd yaşayış məntəqələrinin təbii qazla təminatında müəyyən nöqsanlara yol verilmiş, bir çox kəndlərin normal təzyiqdə təbii qazla təmin olunmaması əhalinin haqlı narazılığına səbəb olmuşdur. Kəndlərin qazlaşdırılması üçün layihə-smeta sənədlərinin hazırlanması zamanı texniki qüsurlara yol verilməsi, çəkiləcək qaz xətlərinin diametrlərinin düzgün müəyyən edilməməsi də yaşayış məntəqələrinin təbii qazla normal təminatında müəyyən çətinliklər yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi kimi 2019-cu il daha çox sosial sahədə inqilabi islahatların reallığa çevrildiyi tarix kimi yaddaşlara yazılacaqdır. Son 3 ay ərzində cənab Prezidentin imzaladığı sərəncam və fərmanların bir çoxu ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasına, aztəminatlı ailələrin qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin və müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.

Ölkə Prezidentinin verdiyi sərəncamlara müvafiq olaraq minimum əmək haqqının, pensiya və sosial müavinətlərin həcmi artırılıb. Dövlət başçısı uzun müddət vətəndaşları narahat edən problemli kreditlərin həlli ilə bağlı verdiyi sərəncamlar və fərmanlar əhalinin rifah halının yüksəlməsinə xidmət edir. Təkcə Göyçay rayonu üzrə sosial müavinət və Prezident təqaüdlərinin artması 6518 nəfərə şamil edilib və onlara 347,9 min manat əlavə vəsait ödənilib. Rayon ərazisində yaşayan 13,6 min nəfər pensiyaçının əmək pensiyalarının siğorta hissəsi indeksləşdirilib, rayon üzrə 160 manatdan az təqaüd alan 3581 nəfər əmək pensiyaçısının pensiyası 160 manata çatdırılmışdır. Poçtamptın Göyçay regional filialı, həmçinin rayon ərazisində fəaliyyət göstərən bank filialları tərəfindən fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyuta olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsinin kompensasiyasının ödənilməsinə başlanılmışdır. Təbii qazdan istifadəyə görə limitin 500 kub.m. artırılaraq 2200 kub.m-ə çatdırılmasını bütün ölkə vətəndaşları kimi rayonumuzun sakinlərində böyük rəğbətlə qarşılamışdır.



Bütün bunlar bir daha sübüt edir ki, dövlətimiz öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsinin, sosial problemlərinin həllini başlıca vəzifə kimi görür bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

Növbəti aylarda rayon iqtisadiyyatının yüksəldilməsi, aqrar sahənin inkişaf etdirilməsinistiqamətində bir sıra tədbirlər həyata keçirilməlidir.

İlk növbədə rayonun sənaye potensialından, emal müəssisələrinin layihə üzrə istehsal güclərindən tam istifadə edilməsi üçün tədbirlər görülməli, emal müəssisələrində yeni istehsal sahələrinin yaradılması, müasir bazar tələblərinə uyğun rəqabət qabiliyyətli və ixrac yönümlü məhsul istehsalı diqqət mərkəzində saxlanılmalıdır.

Rayonun kənd təsərrüfatının mövcud imkanlarından daha dolğun istifadə edilməlidir. Baramaçılığın inkişafına xüsusi diqqət yetirilməlidir. Məlum olduğu kimi keçən əsrin 70-80-ci illərində Göyçay rayonu respublikanın ən iri baramaçılıq rayonlarından biri olub və hər il rayonda 400-420 ton barama tədarük olunurdu. Baramaçılıq sahəsində rayonun əvvəlki şöhrətinin qaytarılması üçün bu gün real imkanlardan səmərəli istifadə etməliyik. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişaf etdirilməsinə dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" respublikada baramaçılığın və ipəkçiliyin inkişaf etdirilməsinə, bu sahədə ixrac potensialının artırılmasına və kənd əhalisinin məşğulluğunun təmin edilməsinə imkan verəcəkdir. Dövlət Proqramına əsasən 2025-ci ilədək yaş barama istehsalının həcminin 6 min tona çatdırılması nəzərdə tutulur.

Cari il üçün Göyçay rayonunda barama tədarükü planı 29 ton müəyyənləşdirilib və bir neçə gündən sonra barama toxumları rayonun kümdarlarına paylanılacaqdır. Əsas vəzifə yüksək keyfiyyətli barama toxumlarının gətirilməsinə və qısa müddər ərzində kümdarlara paylanmasını təşkil etməkdir. Cari il üçün müəyyən edilmiş tapşırıq gərgin olsa da rayonun mövcud potensialı verilmiş planın yerinə yetirilməsini imkan verir. Barama qurdlarının becərilməsinə cəlb edilmiş hər bir kümdar, yerli icra və bələdiyyə orqanları, idarə, müəssisə və təşkilatlar qarşıya qoyulmuş vəzifələrin tam və vaxtında icra edilməsini barama qurdlarına mövcud qaydalara uyğun qulluq göstərilməsini və müəyyən edilmiş həcmdə yaş barama tədarükünü təmin etməlidirlər.



Gələcəkdə qarşıya qoyulmuş hədəflərə çatmaq üçün ilk növbədə baramaçılığın yem bazası artırılmalıdır. Son 3 ildə rayonun kəndlərində 384,6 min ədəd o cümlədən Çin Xalq Respublikasından gətirilmiş 278 min ədəd tut tingi əkilmişdir. İndi qarşıda duran əsas vəzifə tut tinglərinə lazımi aqrotexniki qulluq göstərilməsi və onların qorunmasıdır. Əsas ehtiyyat mənbələrindən biri də kəndlərdə mövcud olan tut ağaclarıdır. Lakin uzun müddət bu ağaclardan baramaçılıq məqsədləri ilə istifadə edilməməsi onların məhsuldarlığını və səmərəliliyini aşağı salmışdır. Yerli icra və bələdiyyə orqanları həmin ağacların barama qurdlarının cari ildəki becərmə dövründə aqrotexniki qaydada budanmasını təmin etməli, həmçinin yerli məhsuldar tut tinglərini əkməklə kəndlərdə baramaçılığın möhkəm yem bazasını yaratmalıdırlar. Çünki barama istehsalı həm vətəndaşlar, həm də dövlət üçün yaxşı qazanc mənbəyidir. 1 kq-ı 4 manata təhvil götürülən, həm də təhvil verilən məhsulun hər kiloqramı üçün 5 manat subsidiya verilən barama 30-35 gün ərzində hər bir ailənin maliyyə imkanlarını yaxşılaşdırır, dövlət üçün də valyuta gətirir. Rayonun ucqar, iri meyvə bağları olmayan kəndlərində gəlirli sahə olan baramaçılığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir.

İclasda qeyd olunmuşdur ki, yaxın günlərdə qarşıda duran əsas vəzifələrdən biri də taxıl biçini kampaniyasının optimal müddətlərdə və itkisiz toplanmasını təmin etməkdir. Odur ki, hər bir kənd üzrə taxıl biçən kombaynlara olan tələbat dəqiq öyrənilməli və qısa müddət ərzində müvafiq texnikaların biçinə hazır vəziyyətə gətirilməsi təmin edilməlidir. Taxıl sahələrinin otdan qorunması, biçilmiş sahələrin yandırılmasının qarşısının alınması üçün təbliğat tədbirləri gücləndirilməli, ehtiyac olan yerlərdə taxıl sahələrinin kənarlarının şumlanmaqla oddan mühafizəsi təmin edilməlidir.

**Növbəti aylarda qarşıya qoyulmuş vəzifələrin icrası hər kəsdən yüksək məsuliyyət tələb edir. Heç şübhə yoxdur ki, rayonun müəssisə və təşkilat rəhbərləri yerli icra və bələdiyyə orqanları Ölkə Prezidentinin fərman və sərəncamlarını, tapşırıqlarını rəhbər tutaraq bütün qüvvə və bacarıqlarını rayonun inkişafı naminə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinə sərf edəcəklər.**

**Məzahir ƏHMƏDZADƏ**